Redaksiyamızın poçtundan

# “Xocalı yürüşü”ndə iştirak etdim: kədər və qürurla!

*Fevralın 26-sı... Bu gün düşüncələrimizə kədərlə, qanla yazılmış bir gündür. Çünki düz 25 il öncə Vətənimizin qədim guşəsi olan Xocalı düşmənlərimizin soyqırımına məruz qalıb. Yüzlərlə günahsız insan - qoca, qadın, körpə... qanına qəltan edilib.*

2017-ci ilin 26 fevralı... İstirahət günü olmasına baxmayaraq səhər erkən oyanıram. O biri otaqdan səs eşidirəm. Anamdı: "Qızım, bu vaxt hara tələsirsən?"

Tələbə yoldaşlarımla universitetin yanında görüşüb "Xocalı yürüşü"ndə iştirak edəcəyimi deyirəm. Bir azdan deyilən ünvanda toplaşıb yürüşə qatılırıq. Burada böyük insan axını var. Başda Prezidentimiz olmaqla, yaşından, vəzifəsindən asılı olmayaraq on minlərlə vətəndaşımız paytaxtın mərkəzi meydanına yol alıb. Hamı bir ünvana - Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaldılan "Ana harayı" abidəsini ziyarət etməyə tələsir.

Yolboyu düşüncələrə dalıram. Xəyalımda, fikrimdə o dəhşətli faciənin günahsız qurbanları canlanır. Xocalı dəhşətləri barədə valideynlərimdən, müəllimlərimdən çox eşidib öyrənmişəm. Dekanımız professor Buludxan Xəlilov, həmişə universitetin tədbirlərində çıxış edir, tariximizlə bağlı bilmədiklərimizi bizə çatdırır. Xocalı qırğınının şahidləri olmasaq da, o faciə hər gün, hər saat bizi narahat edir, düşmənimizi bizə dərindən tanıdır. Başqa müəllimlərimiz də xalqımızın başına gətirilən müsibətlərdən, zaman-zaman ermənilərin havadarlarına arxalanaraq torpaqlarımızda törətdiyi faciələrdən bəhs edirlər. Xocalı faciəsinin ilk olaraq ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə siyasi-hüquqi cəhətdən qiymətləndirilməsindən danışırlar. Bu gün də Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi və Heydər Əliyev Fondunun böyük təşkilatçılığı ilə Xocalı həqiqətlərinin dünyada layiqincə təbliğ olunmasını qeyd edirlər.

Yeniyetmə yaşlarımdan Xocalıdan bəhs edən filmlərə, televiziya verilişlərinə diqqətlə qulaq asıram. Neçə il öncə Xocalı faciəsinin şahidlərindən biri - o dəhşətli gecədə düşmən tərəfindən əsir götürülmüş və sonradan azad edilmiş qadın danışırdı ki, onlar meşədə gizləndikləri vaxt bir




gəlin soyuqdan donur, amma ağuşunda olan körpə qızcığazı onun sinəsində süd axtarır. Bu söhbəti dinləyəndən sonra neçə gün özümə gələ bilmədim. Atam deyir ki, bir tədbirdə həmin qızla görüşüb, onun ağrılı-acılı söhbətini dinləyib. Düşünürəm ki, məgər bəşər övladı belə bir vəhşiliyə, qəddarlığa qıyarmı? Amma erməni qaniçənləri bu cür faciələrə dəfələrlə səbəbkar olublar. Mütləq onlar tarix qarşısında cavab verəcəklər, gərək dünya dövlətləri də, səhər-axşam insan hüquqlarından ağızdolu danışan beynəlxalq təşkilatlar da bu cür tarixi cinayətə, qəddarlığa biganə qalmasın. Axı Xocalıda qətlə yetirilən dinc, əliyalın adamların günahı nə idi? Niyə zavallı insanlar doğma ev-eşiklərində qanına qəltan edildilər?

Bir anlıq insan selinə göz gəzdirib ümumxalq yürüşünü seyr edəndə qürurlanıram. Axı indi 25 il əvvəlki zaman deyil. İndi güclü siyasi liderimiz, həmrəy xalqımız, gündən-günə qüdrətlənən müstəqil Azərbaycan adlı dövlətimiz, hərbi qüdrəti ilə düşmənə göz dağı olan doğma ordumuz var. Sıralarında Mübarizləri, Samidləri, Çingizləri birləşdirən ordumuz düşmənə öz gücünü yenə də göstərəcəkdir. Lələtəpədə, Bayraqtəpədə olduğu kimi, Vətənimizin hər bir guşəsində üçrəngli bayrağımız qürurla dalğalanacaqdır!



**Səkinə PƏNAHOVA**